# BİZNES DAVRANIŞ QAYDALARI

Rəqabət. Şəffaflıq. Əməkdaşlıq.



# BIZNES DAVRANIŞ

## Giriş – Biznes Davranış Qaydaları nəyə lazımdır?

Azərbaycandakı AmCham assosiasiyasının vəzifəsi "Azərbaycanda biznes mühitinin təkmilləşdirilməsi istiqamətində çalışaraq, onun Üzvlərinin biznes maraqlarına yardım göstərməkdir…"

Həmin vəzifənin öhdəsindən gəlmək imkanlarını daha da genişləndirmək üçün seçilən yollardan biri də onun Xüsusi Üzvlərinin və Ümumi Üzvlərinin Azərbaycanda apardıqları biznes fəaliyyətində əməl etməyə razılıq verəcəkləri AmCham Biznes Davranış Qaydalarını təsis etməkdir.

Azərbaycandakı AmCham biznes fəaliyyətində ədalətin və düzgünlüyün tərəfdarıdır. O, korrupsiyaya və anti-rəqabət əməllərinə qarşı çıxış edir. Azərbaycandakı AmCham əmin olduğunu bildirir ki, AmCham Biznes Davranış Qaydaları ona Xüsusi Üzvlər və Ümumi Üzvlər tərəfindən əməl edilərsə, Azərbaycanda biznes mühitinin təkmilləşdirilməsinə köməklik göstərə bilən prinsiplər toplusu olacaq.

### Hədiyyələr və əyləncələr

Hədiyyələrin alınması və verilməsi, əyləncəli tədbirlərin təklifi və onlarda iştiraka razılıq biznes fəaliyyətində qərar qəbul etmək sərbəstliyinə təsir göstərə bilər. Onlar qərar qəbul edən şəxslərə xoşagəlməz təsir göstərilməsinə (və ya belə bir təsirin göstərilməsi təəssüratına) gətirib çıxara bilər. Və son nəhayət olaraq, bunlar rüşvət dərəcəsinə aid edilə bilər.

"Hədiyyələr və Əyləncələr" məfhumu bir çox formalarda təzahür edə bilər, məsələn, pul, səhmlər və digər qiymətli kağızlar, istiqrazlar, endirimlər, xidmətlər, mükafatlar, nəqliyyat vasitələrindən istifadə və ya nəqliyyat xidmətlərinin təmin edilməsi, biletlər, ev təmiri xidmətləri, zəmanət kağızları və sair. İstehlak bazarına çıxarılmaq üçün reklam olunan məhsullar və təsadüfi təşkil edilən kiçik ziyafətlər kimi nominal dəyəri olan şeylər bir qayda olaraq həmin kateqoriyaya aid edilmir.

Buna görə də, Azərbaycandakı AmCham-ın Xüsusi Üzvləri və Ümumi Üzvləri:

- Hədiyyələrin alınması və verilməsi, əyləncəli tədbirlərin təklifi və onlarda iştiraka razılıq məsələlərində ehtiyatlı və sağlam düşüncəli olmalı, təkrar xarakter daşıyan halların və ya bədxərcliyin rüşvətxorluğa gətirib çıxaran həddini aşmamalıdırlar.

- Qeyri-qanuni hesab edilən şəraitdə, yaxud təklif edənin və ya qəbul edənin Xüsusi və Ümumi Üzvlərin qərarına yolverilməz təsir göstərmək cəhdi kimi qəbul edilə biləcək heç bir şey təklif etməməli, verməməli və almamalıdırlar.

### Anti-rəqabət əməlləri

Ticarətə maneçilik törədən, rəqabəti məhdudlaşdıran və ya inhisar yaratmaq məqsədi güdən əməllər Azərbaycandakı AmCham-ın Xüsusi və Ümumi Üzvlərinin biznes maraqlarına uyğun gəlmir.

Belə əməllərə aşağıdakıları nümunə göstərmək olar:

**Qiymətlərdə ayrıseçkilik** – qiymətlərdəki fərqin rəqabətə mənfi təsir göstərəcəyi yerlərdə eyni məhsulun müxtəlif sifarişçilərə müxtəlif qiymətlərlə satılmasıdır.

**Qiymət qoymada sövdələşmə** – rəqabət aparanlar tərəfindən qiymətlərin qaldırılması, azaldılması və ya sabitləşdirilməsi, yaxud qiymətlərlə bağlı kredit şərtlərinin və qiymət qoyma metodlarının öz aralarında razılaşdırılmasıdır.

**Qiymət təkliflərinin saxtakarlıqla razılaşdırılması** – rəqabət aparanların öz aralarında qiymət təkliflərinin nəticələrinə dair sövdələşməsidir; misal üçün qiymətlər və ya şərt və müddəalar barəsində, yaxud kimin hansı müqavilə üçün qiymət təklifi verəcəyi barədə razılaşmalardır.

**Bazarın bölüşdürülməsi** – rəqabət aparanlar tərəfindən bazarları, əraziləri, sifarişçiləri və ya məhsulları öz aralarında bölüşdürməsidir.

Buna görə də, Azərbaycandakı AmCham-ın Xüsusi və Ümumi Üzvləri:

- Rəqibləri ilə qiymət qoyma, sifarişçilərin bolüşdürülməsi, coğrafi fəaliyyət əraziləri, məhsul və ya iş növləri barədə nə razılaşma, nə də anlaşma müqavilesi bağlamamalıdırlar.

- Rəqibləri ilə satışlar, mövcud və ya potensial sifarişçilər, qiymət təklifləri, sifarişçilərə təqdim olunan məhsullar və xidmətlər barədə, imkanlar və ya gələcək planlar barədə müzakirə aparmamalıdırlar.

- Heç bir başqa yol ilə anti-rəqabət əməllərində iştirak etməməlidirlər.

- Korporativ casusluq vasitəsilə və qeyri-qanuni yol ilə digər təşkilatların mülkiyyəti olan məlumatları əldə etmək cəhdlərinə əl atmamalıdırlar.

## Məhsulların və xidmətlərin satınalınması və biznes partnyorlarının seçilməsi

Azərbaycanda biznes fəaliyyəti göstərən müəssisələrin mal və xidmət satınalma üsulları Azərbaycanda biznes mühitinin yaxşılaşmasına əsaslı təsir göstərə bilər. Buna da müvafiq olaraq, hazırkı Qaydalar üzrə öhdəliklərin pozulmaması üçün biznes partnyorlarının ehtiyatla seçilməsi vacib şərtdir.

Buna görə də, Azərbaycandakı AmCham-ın Xüsusi və Ümumi Üzvləri:

- Məhsul və xidmətlərin satın alınmasını yalnız keyfiyyət, qiymət və xidmət meyarı əsasında həyata keçirməlidirlər.

- Biznes apardıqları bütün şəxslərlə vicdanla rəftar etməlidirlər.

- Biznes partnyorlarını və nümayəndələrini seçərkən hazırkı Qaydaları nəzərə alaraq lazımi səy, ehtiyat və sağlam düşüncə tətbiq etməlidirlər.

## Sağlamlıq, təhlükəsizlik texnikası, mühafizə və ətraf mühitin qorunması

Sağlam işçilər, təhlükəsiz və mühafizə olunan iş yerləri məhsuldarlığın yaxşılaşmasına aparan amillərdir. Ətraf mühitə dəyən zərərin minimuma endirilməsi isə korporativ sosial məsuliyyətin vacib bir hissəsidir.

Təhlükəsiz və mühafizə olunan iş yerlərinin təmin edilməsi, təbii sərvətlərdən istifadə edərkən məsuliyyətli davranma və tullantıların azaldılması Xüsusi və Ümumi Üzvlərin Azərbaycanda biznes mühitinin yaxşılaşdırılmasına göstərə biləcəkləri yardım yollarıdır.

Buna görə də, Azərbaycandakı AmCham-ın Xüsusi və Ümumi Üzvləri:

- Apardıqları biznes fəaliyyətlərində öz işçilərinin və başqalarının sağlamlığı, təhlükəsizliyi və mühafizəsi, eləcə də ətraf mühitin qorunması ilə bağlı məsələlərə başlıca əhəmiyyət verməlidirlər.

## Təqiblər/təhqirlər və ayrıseçkilik

İş yerində təqiblər/təhqirlər müəyyən şəxslərə və ya qruplara qarşı təhqiramiz və xoşagəlməz davranışlardır. Bunlar müxtəlif formalarda ola bilər: seksual xarakterli təqiblər, sataşma və söz və ya hərəkət ilə edilən digər bədxah və ya alçaldıcı davranışlar.

Ayrıseçkilik daha çox milliyət, irq, din, yaş, rəng, cins və ya qüsurluluq amilləri zəminində olan qeyri-bərabər rəftardır.

## Azərbaycandakı AmCham-ın Xüsusi və Ümumi Üzvləri:

- İş yerində milliyət, irq, din, yaş, rəng, cins, qüsurluluq və ya hər-hansı digər ayrıseçkilik amili (qanunlarda nəzərdə tutula bilən hallar istisna olmaqla) əsasında olan təqiblərin/təhqirlərin və ayrıseçkiliyin kökünü kəsməyə səy göstərməlidirlər.

- Biznes apardıqları bütün şəxslərə qarşı hörmət və nəzakət nümayiş etdirməlidirlər.

American Chamber of
AMCHAM
Commerce in Azerbaijan

AmCham Azərbaycan
II Landmark Binası
Nizami küç., 96
AZ1010 Bakı, Azərbaycan
Tel.: + 99 412 4971333
Faks: +99 412 4971091
www.amchamaz.org